

Dünyanın ən böyük dərsi

*«Şagirdləri qazandıqları bilikləri xeyirli məqsədlər naminə istifadəyə yönəltmək lazımdır.*

*Çətin çağırışlardan qorxmayan yaradıcı insan başqaları ilə əməkdaşlıqda qlobal problemləri dərindən anlayaraq dünyada görmək istədiyimiz dəyişikliklərin başında duracaq.*

*Ən yüksəkdəki buluda tərəf gedin, ona çata bilməsəniz də yüksək dağın zirvəsində olacaqsınız».*

Sharee Ineson

Yeni Zelandiya qızlar

üçün Sautlend orta məktəbinin müəllimi Şeri İneson.

# Yolu yarıya qədər getmək mənasızdır: Minilliyin İnkişaf Məqsədlərindən (MİM) Qlobal Məqsədlərə

## Fənn

Sosial araşdırmalar, vətəndaşlıq, coğrafiya

## Təlim nəticələri

- Qlobal Məqsədlər haqqında təməl biliklərə malik olmaq.
- Qlobal Məqsədlərin təsiri haqqında düşünmək
- Qlobal Məqsədlərlə Minilliyin İnkişaf Məqsədləri arasındakı əlaqəni müəyyən etmək
- Niyə Qlobal Məqsədlər Minilliyin İnkişaf Məqsədlərilə müqayisədə daha dayanıqlı olmağa yönəlmişdir.

## Hazırlıq

- Dərs üçün Minilliyin İnkişaf Məqsədləri barəsində təsəvvürləri olmalıdır.
- Dərsdən əvvəl şagirdlər "Qlobal məqsədlərə giriş" adlı animasiya filmini izləməlidir. www.globalgoals.org/worldslargestlesson.
- Şagirdlər filmi izləməyiblərsə, dərs planı qurarkən, dərsin ikinci yarısında filmin izlənməsi üçün vaxt ayırmaq lazımdır.
- Təlim tapşırıqları üçün əlavələri çap edin.

Ümumi vaxt:

60 Dəq.

Возраст:

11-14 Yaş

“Dünyanın ən böyük dərsi” – Birləşmiş Millətlər Təşkilatı tərəfindən qəbul edilmiş dayanıqlı inkişaf məqsədlərinin elan edilməsi ilə əlaqədar birgə təhsil layihəsidir. Bu layihə 17-ci məqsədin -“Dayanıqlı inkişaf naminə tərəfdaşlıq” məqsədinin mühümlüyünün canlı sübutudur və onun gerçəkləşdirilməsi bizimlə və biri-biri ilə əməkdaşlıq edən tərəfdaşlarımızın köməyi olmadan mümkün olmazdı.

Layihənin təşkilat qrupuna təşəkkür edirik:

---

Dünya üzrə bizimlə işləyənlərə xüsusi təşəkkürlər:

---

“Qlobal düçüncə” təşkilatının əməkdaşlığı ilə hazırlanmış dərs planları (Think Global) www.thinkglobal.org.uk

Ədalətli və dayanıqlı sülhün təmin edilməsi məqsədi ilə təlimin təbliği.

## Təlim tapşırığı

5 Dəq.

“Pani” futbol klubu haqqında qısametrajlı filmi izləyin (müddəti-5:15).:

- https://vimeo.com/21871455
- https://www.youtube.com/watch?v=jU4oA3kkAWU

Bu film “Pani” futbol klubunun yaranması haqqındadır. Pani – Tailandda yerləşən kiçik adadır. Ada sakinlərinin ölkədə ən güclü futbol komandalarından birini necə yaratdıqları nümayiş etdirilir.

Şagirdlərdən cütlüklərə bölünməyi və aşağıdakıları müzakirə etməyi xahiş edin:

- Filmdə nədən bəhs edilir?
- Filmdə qəhrəmanları nəyə nail oldular?
- Oğlanların xəyalını gerçəkləşdirən amillər hansılardır?
- Filmin əsas ideyası nədir?

## Diferensiasiya və alternativ tapşırıqlar

İnternetə çıxışınız yoxdursa, Əlavə 1-də olan hekayədən istifadə edin.

## Təlim tapşırığı

10 Dəq.

Əlavə 2-dən istifadə edin, Minilliyin 8 İnkişaf Məqsədini brilliant prinsipinə əsasən düzün. Bu, MİM mövzularının çox əhəmiyyətlidən az əhəmiyyətliyə doğru brilyant formasında yerləşdirilməsi deməkdir. Üstdə olan məqsəd çox əhəmiyyətli, ondan sonra əhəmiyyətinə görə orta, altda isə fikrinizcə ən az əhəmiyyətə malik məqsəd yerləşdirilir.
Bu cür düzülüş brilliant formasına bənzəyir.

Düzülüş variantları:

- Yerli səviyyədə
- Respublika səviyyədə
- Qlobal səviyyədə
    - Əhəmiyyətlilik prinsipinə əsasən
    - Əldə edilmiş nəticələr prinsipinə əsasən
    - Gələcək fəaliyyət prinsipinə əsasən

Burada düzgün və ya yanlış cavablar yoxdur. Məqsəd şagirdlərin ideyalarının öz aralarında müzakirəsidir.

MİM tapşırıqlarını yerinə yetirdikdən sonra dayanıqlı inkişafın Qlobal Məqsədlərinin izahına keçin.

## Diferensiasiya və alternativ tapşırıqlar

Alternativ olaraq şagirdlərə 3 məqsədi seçməyi təklif edin və ya 2 məqsədin çıxarılmasını xahiş edin.

Yuxarı sinif və ya daha hazırlıqlı şagirdlər düzülüş prinsiplərinə əsaslanaraq tapşırığı bir neçə dəfə yerinə yetirə bilər və düzuluş prinsipindən asılı olaraq fərqləri müzakirə edə bilərlər.

## Təlim tapşırığı

10 Dəq.

İlkin ideyalarını qeyd etmək üçün Qlobal Məqsədlər mövzusunda assosiativ baza xəritəsi və ya hörümçək formasında diaqram qurmağı şagirdlərdən xahiş edin.

Qlobal məqsədlər və ya problemlərin həllinə yönəlmiş biliklərini orada qeyd etməyi şagirdlərdən xahiş edin.

Qlobal məqsədlər haqqında eşitdikdə şagirdlərin ağlına hansı şəkil, simvol və ya rəng gəldiyini və ya hər hansı bir konkret məqsəd (onunla bağlı problem) haqqında soruşun. Şagirdlər öz ideyalarını xəritəyə əlavə etməlidirlər.

## Diferensiasiya və alternativ tapşırıqlar

Əlavə olaraq “Bilirəm, bilmək istəyirəm, öyrəndim” cədvəlini qurmağı şagirdlərdən xahiş edə bilərsiniz. Şagirdlər üç sütunlu cədvəl çəkib, Qlobal Məqsədlər haqqında bildiklərini birinci sütunda, öyrənmək istədiklərini ikinci sütunda qeyd edirlər. Nəzərə alın ki, II sütunu bütün dərs boyu doldurmaq olar.

Dərsin sonunda Qlobal Məqsədlər haqqında yeni biliklərini cədvəlin III sütununda qeyd etməyi şagirdlərdən xahiş edin.

“Bilmək istəyirəm” sütününda qeyd olunmuş maraqlı ideyaları növbəti dərsin əsası kimi istifadə etmək olar.

## Təlim tapşırığı

20 Dəq.

Qısa müsahibələr. Şagirdləri 6 nəfərlik qruplara bölün. Hər şagirdə Əlavə 3-ün sürətini verin. Şagirdlərə materialla tanış olmaq üçün 3 dəq. vaxt verin. Əmin olun ki, onlar materialın məzmununu anlayırlar. Şagirdlər anlamadıqlarını sizdən soruşa bilər. Sonra qrup daxilində cütlüklər yaratmağı xahiş edin. Mövzuları bir-birinə qısaca şərh etmək üçün şagirdlərə əlavə 1 dəq. vaxt verin.

Daha sonra tərəf-müqabilini dəyişərək digər mövzuları dinləməyi şagirdlərə təklif edin. Əsas fikirləri və ideyaları qeyd etməyi xahiş edin.. Qısa müsahibənin məqsədi bütün mövzuları dinləmək və əsas ideyaları assosiativ xəritədə qeyd etməkdir. Mümkündürsə, ilkin fikirlərindən fərqləndirmək məqsədilə qeydləri başqa rəngdə olan qələmlə aparmağı şagirdlərdən xahiş edin.

## Diferensiasiya və alternativ tapşırıqlar

Şagirdlər həmçinin “Görmək istədiyimiz dünya” tapşırığını da istifadə edə bilərlər. Bu tapşırıq uşaq və gənclər üçün Qlobal Məqsədlərin şərhidir.
www.globalgoals.org/worldslargestlesson.

## Təlim tapşırığı

5 Dəq.

Qlobal Məqsədlərin mövzuya dair mümkün nəticələri barəsində düşünməyi şagirdlərə təklif edin və öz ideyalarını və fikirlərini xəritədə qeyd etməyi xahiş edin. Məqsədlərə əməl olunduğu halda, 5 il sonra baş verə biləcəklər barəsində düşünməyi xahiş edin.

## Diferensiasiya və alternativ tapşırıqlar

Daha hazırlıqlı şagirdlərə 5, 10, 15 il sonrakı situasiya barədə düşünməyi təklif edin. Onlar necə fərqlənəcək?

Tapşırığı genişləndirib “Qlobal Məqsədlərin müsbət nəticəsinə nə mane ola bilər?” sualı ətrafında düşünməyi şagirdlərə təklif etmək olar.

## Təlim tapşırığı

10 Dəq.

Dərsin yekununda şagirdlərə Əlavə 4 və ya 5-dən 17 Qlobal məqsədi nümayiş etdirin. Şagirdlərə onları brilliant prinsipinə əsasən düzməyi xahiş edin. Nəticələr nə dərəcədə oxşardır?

Sualları müzakirə etməyi şagirdlərə təklif edin:

- Qlobal məqsədlər MİM-dən nə ilə fərqlənir?
- Dayanıqlı inkişaf nədir və nəyə görə Qlobal Məqsədlər MİM-dən daha dayanıqlıdır?
- Niyə Qlobal Məqsədlər MİM-dən daha uğurlu ola bilər?
- Dərsin əvvəlində nümayiş olunmuş hekayə və Qlobal Məqsədlər haqqında düşünməyi şagirdlərə təklif edin. Onlar arasında hansı əlaqə var?
- Nə üçün Qlobal Məqsədlərdə iştirak daha vacibdir?
- Şagirdlər Qlobal Məqsədlər Facebook səhifəsində assosiativ xəritələri paylaşa bilərlər.

### Qlobal Məqsədlərə çatmaq üçün fəaliyyətə başlayın

Müəllim olaraq sizin şagirdlərin müsbət enerjisini düzgün istiqamətləndirmək və onları aciz olmadıqlarına, dəyişikliyin mümkün olduğuna inandırmaq imkanınız var.

“Design for Change” hərəkatı tərəfindən keçirilən “Mən bacarıram” məktəb müsabiqəsi uşaqları əməkdaşlığa çağıraraq öz mühitlərində dəyişikliklər etməyə və öz təcrübələrini dünyadakı uşaqlarla bölüşməyə dəvət edir.

Başlamaq üçün www.dfcworld.com saytına daxil olun.

“Design for Change”in dərslər və ya şagirdlərə sərbəst fəaliyyətləri üçün www.globalgoals.org/ worldslargestlesson sayta daxil olun.

DESIGN for CHANGE

## “Pani” Futbol klubu

Pani Cənubi Tailandda dirəklər üstündə üzən kiçik bir kənddir. 1986-cı ildə bu kəndin oğlanları mövcud normalara qarşı çıxan və gələcək nəsilləri ruhlandıran addım atıblar. Pani hər tərəfdən su ilə əhatə olunduğu üçün idman növlərindən burada yalnız qayıq sürmə və balıq tutma inkişaf etmişdi.

Lakin oğlanlar futbol vurğunu idilər. Bir gün oğlanlar müstəqil futbol komandası yaratmağı qərara alır. Kəndin oğlanları çempion olmağı arzulayır. Kənd camaatı isə bu ideyanı sadəlövlük adlandırıb, gülürdü. Panidə bu günə qədər belə bir şey olmamışdı, suda dirəklər üzərində yerləşən kənddə futbol komandasının yaradılması mümkünsüz görünürdü. Oğlanlar anladılar ki, kənd camaatı həqiqəti deyir. Kənddə futbol oynamaq və məşq etmək mümkün deyildi, bu məsələnin həlli üçün yer də yox idi.



Oğlanlardan ibarət futbol komandası var idi, amma bu komandanın oynaması üçün futbol meydançası yox idi.

Oğlanlar kəndi gəzib taxtalar topladılar, bu taxtaları bir-birinə bağlayıb suda sal düzəltdilər. Onlar meydançanı axşamlar dərsdən sonra hazırlayırdılar. Taxtadan yığılmış meydançanın nahamar və təhlükəli olmasına baxmayaraq, oğlanların şəxsi futbol meydançası var idi. Meydançanın bəzi yerlərində mismarlar görünürdü. Oğlanlar da, top da tez-tez suya düşürdü. Onlar sürüşkən nəm yerdə oynamaq məcburiyyətində idilər. Meydança kiçik olduğu üçün komanda texnikasını inkişaf etdirdi. Kəndin camaatı isə öz fikirlərindən dönmürdü, bu komandanın nahamar meydançada məşq etməklə çempion olacağına inanmırdı.

Bir gün oğlanlar materikdə keçiriləcək bir günlük futbol turnirinin elanını gördülər. Komanda bu turnirdə iştirak üçün səriştəli olduğundan əmin deyildi, lakin iştirak etmək qərarına gəldi. Oğlanlar bütün kəndin onların məşqlərini izlədiyindən bixəbər idi. Kənd camaatı köməkləşərək turnirdə iştirak üçün komanda üzvlərinə futbol təchizatı aldı. Bəziləri isə oğlanları dəstəkləməq məqsədilə materikə getdi.

Oyun başlayan kimi oğlanlar düşündüklərindən daha yaxşı oyun nümayiş etdiklərini anladılar. Onlar yarımfinala çıxdılar. Matç pis başladı, güclü yağış yağırdı, onların butsları su ilə doldu. Rəqib komanda isə kifayət qədər istedadlı idi. Oyunun yarısına rəqib komanda artıq iki top vurmuşdu. Komanda özünə güvəni itirmişdi və nə edəcəyini bilmirdi.

Oyunun ikinci yarısında komanda üzvləri butslarını soyunmağı qərara aldı. Oğlanlar məşqlərdə də ayaqyalın oynayırdılar, məhz buna görə daha sürətli oynamağa başladılar. Tezliklə onlar hesabı bərabərləşdirdilər. Son dəqiqələrdə vurulan top rəqib komandaya qalibiyyət gətirməsinə baxmayaraq, Pani kəndi öz komandası ilə fəxr edirdi. Tezliklə futbol Panidə ən məşhur hobbiyə çevrildi. Kənd camaatı komanda üçün yeni, hamar və böyük futbol meydançası inşa etdi. ”Pani” futbol klubu Cənubi Tailandda ən yaxşı futbol klubları siyahısındadır. Bu komanda 2004, 2005, 2006, 2007, 2008, 2009, 2010-cu illərin gənclər çempionatının qalibidir.

# Minilliyin İnkişaf Məqsədləri




MİM 1: Yoxsulluğun və aclığın aradan qaldırılması

MİM 2: İbtidai təhsilin təmin edilməsi

MİM 3: Qadın və kişi bərabərliyinin rəğbətləndirilməsi, qadınların hüquq və imkanlarının genişləndirilməsi

MİM 4: Uşaq ölümünün azaldılması

MİM 5: Analığın mühafizəsinin yüksəldilməsi

MİM 6: QİÇS, malyariya və digər xəstəliklərlə mübarizə

MİM 7: Ekoloji dayanıqlığın təmin edilməsi

MİM 8: İnkişaf məqsədilə qlobal əməkdaşlığın formalaşdırılması

**Məqsədlər yazılmış kartları kəsin, çox əhəmiyyətlidən az əhəmiyyətliyə olmaqla düzün.**

# Dayaniqlı inkişafın qlobal məqsədləri

## Mövzu 1. Yoxsulluq (Qlobal məqsəd 1 – Yoxsulluğa son; Qlobal məqsəd – 10 Qeyri-bərabərliyin azaldılması)

**Qlobal məqsədlər 1 və 10 çərçivəsində vəzifələr**

- Bütün insanlar üçün yoxsulluğa son. (bir günə 1.25 ABŞ dolları qazananlar ən yoxsul insanlar sayılır)
- Qadın və kişilərə iqtisadi resurslar sahəsində, o cümlədən varislik və mülkiyyətin digər formalarının idarə edilməsi və sahibliyinə bərabər hüququ təmin etmək.
- Əhalinin yoxsul təbəqəsinin və həssas vəziyyətdə olanların həyat stabilliyini təmin etmək, təbii fəlakətlərin vurduğu ziyanı azaltmaq.
- Yaşından, cinsindən, sağlamlıq məhdudiyyətindən, irqindən, milliyətindən və dinindən asılı olmayaraq hamının sosial, iqtisadi və siyasi irəliləməsinə imkan yaratmaq və köməklik etmək.
- İnsanların nizama salınmış və dəqiq planlaşdırılmış miqrasiya siyasəti ilə təhlükəsiz, müntəzəm, məsuliyyətli miqrasiyasına və yerdəyişməsinə köməklik etmək.

**Nə üçün?**

- Dünyanın ən zəngin 85 insanı ilə dünyanın ən yoxsul əhalisinin (3.5 milyard insan) pulu bərabərdir. (Oksfam, Böyük Britaniya 2014)

## Mövzu 2: Fərdi sağlamlıq və rifah (Qlobal məqsəd 2 – Aclığa son; Qlobal məqsəd 3 – Sağlam həyat tərzi; Qlobal məqsəd 6 - Təmiz su və sanitariya)

**Qlobal məqsədlər 2, 3 və 6 çərçivəsində vəzifələr**

- Aclığa son qoymaq və il boyu bütün insanların, xüsusilə yoxsulların və uşaqlar daxil olmaqla həssas vəziyyətdə olanların təhlükəsiz və bol qidaya çıxış imkanını təmin etmək.
- Qida məhsulları istehsalının dayanıqlı sistemini təmin etmək və kənd təsərrüfatında məhsuldarlığı artıran, ekosistemi müdafiə edən və torpağın keyfiyyətini daim yüksəltməyə imkan verən dayanıqlı metodika tətbiq etmək.
- Ana ölümünün faizini azaltmaq: 100 000 haldan 70 ölümə qədər.
- Yeni doğulmuşların və beş yaşa qədər uşaqların ölümünə son qoymaq.
- Yol qəzaları nəticəsində ölüm və zədələnmə hallarını iki dəfə azaltmaq.
- Hamı üçün təhlükəsiz içməli suya münasib qiymətə bərabər çıxışı təmin etmək.
- Qız və qadınların ehtiyaclarına xüsusi diqqət yetirərək hamı üçün məqbul və bərabər təhlükəsiz gigiyenik şəraiti təmin etmək.

**Nə üçün?**

- İndiyə qədər dünyada xroniki aclıqdan 870 milyona qədər insan əziyyət çəkir, bu özünü uşaqlarda boy artımı ləngiməsinin çox yayılması və aclığın digər əlamətləri kimi göstərir. Qidalandırıcı mikroelementlərin ciddi çatışmazlığı yüz milyonlarla insanların sağlamlığına zərbə vurur. Hesablamalara görə, hər il 5 yaşadək təxminən 3 milyon uşaq az və keyfiyyətsiz qidalanma nəticəsində ölür. (http://unsdsn.org/resources/goals-and-targets/)

## Mövzu 3: Təhsil, bacarıqlar və iş (Qlobal məqsəd 4 - Keyfiyyətli təhsil; Qlobal məqsəd 8 - Layiqli iş və iqtisadi artım)

**Qlobal məqsədlər 4 və 8 çərçivəsində vəzifələr**

- Bütün qız və oğlanların tamamilə ödənişsiz, bərabər və keyfiyyətli ibtidai və orta təhsilini təmin etmək.
- Universitet təhsili daxil olmaqla bütün qadın və kişilərə keyfiyyətli və əlçatan, texniki-peşə və ali peşə təhsilinə çıxış imkanını təmin etmək.
- Təhsil sahəsində gender bərabərsizliyini aradan qaldırmaq, cəmiyyətin həssas qruplarının, etnik azlıqların nümayəndələrinin və çətin vəziyyətdə olanların, o cümlədən uşaqların, sağlamlıq imkanları məhdud insanların təhsilin bütün mərhələlərinə bərabər çıxışını təmin etmək.
- İnnovasiya, texnoloji tərəqqi və diversifikasiya yolu ilə əmək məhsuldarlığını daha yüksək səviyyəyə qaldırmaq.
- Bütün qadın və kişilər, gənclər və sağlamlıq imkanları məhdud insanlar üçün istehsal məşğulluğunun, layiqli əmək şəraitinin yaradılmasına nail olmaq, eləcə də eynitipli əməyin bərabər ödənilməsini təmin etmək.

**Nə üçün?**

- 57 milyon uşaq məktəbə getmir, onlardan 31 milyonu qızlardır; 57 milyonun 49 % yəqin ki, heç vaxt təhsil almayacaq; 57 milyonun 50 % dən çoxu Mərkəzi və Qərbi Afrikada yaşayır. (http://en.unesco.org/post2015/sites/post2015/files/Making_Education_a_Priority_in_the_Post-2015_Development_Agenda.pdf).

## Mövzu 4: Ədalətli dünya (Qlobal məqsəd 5 – Gender bərabərliyi; Qlobal məqsəd 16 – Sülh, ədalət və güclü institutlar)

**Qlobal məqsədlər 5 və 16 çərçivəsində vəzifələr**

- Hər yerdə qadın və qızlara qarşı ayrı-seçkiliyin bütün formalarına son qoymaq.
- Dövlət və özəl sahələrdə qadın və qızlara qarşı zorakılığın bütün formalarına, o cümlədən insan alveri, cinsi və s. istismar növlərinə son qoymaq.
- Siyasi, iqtisadi və ictimai həyatda qərarların qəbul olunmasının bütün səviyyələrində tam və səmərəli iştirakı təmin etmək.
- Hər yerdə zorakılığın bütün formalarına son qoymaq və onun nəticəsi olan ölümü azaltmaq.
- Uşaqlar üzərində istismara, sui-istifadəyə, insan alveri və bütün növ zorakılıq və təhqirlərə son qoymaq.

**Nə üçün?**

- Mərkəzi və Qərbi Afrikada, Qərbi və Cənubi Asiyada orta və ali təhsil alan oğlanların sayı qızların sayından xeyli çoxdur.
- Bütün dünyada qadınlar öz ölkələrinin parlamentində dörddə birdən az yer tutur. (http://www.theguardian.com/global-development/2015/mar/26/millennium-development-goal-three- gender-equality-explainer).

## Mövzu 5: Dayanıqlılıq (Qlobal məqsəd 7 – Ucuz və təmiz enerji; Qlobal məqsəd 9 – Sənayeləşdirmə, innovasiya və infrastruktur; Qlobal məqsəd 11 - Davamlı inkişaf edən şəhərlər; Qlobal məqsəd 12 – Düşünülmüş istehlak və istehsal; Qlobal məqsəd 17 – Dayanıqlı inkişaf naminə tərəfdaşlıq)

**Qlobal məqsədlər 7, 9, 11, 12 və 17 çərçivəsində vəzifələr**

- Hamı üçün etibarlı və əlçatan enerji resurslarından istifadə imkanı təmin etmək.
- İqtisadi inkişafı dəstəkləmək və insanların rifahını yüksəltmək üçün keyfiyyətli, etibarlı və möhkəm infrastrukturu inkişaf etdirmək.
- Hamı üçün mənzillərin saxlanılması və baza xidmətlərinə münasib, əlçatan və təhlükəsiz çıxışı təmin etmək, xarabalıqların vəziyyətini yaxşılaşdırmaq.
- Təbii ehtiyatların səmərəli istifadəsini və dayanıqlı idarəsini təmin etmək.
- Pərakəndə ticarət və eyni zamanda ev təsərrüfatı səviyyəsində qida tullantılarının payını ikiqat azaltmaq; qida məhsullarının istehsalı və satışı zamanı itkiləri azaltmaq.
- Dayanıqlı inkişaf və yoxsulluğun aradan qaldırılması siyasətinin yaradılması və tətbiqi məsələsində bütün ölkələrin liderliyinə və siyasi məkanına hörmət etmək.

**Nə üçün?**

- Hesablamalara görə, 2015-ci ildə təxminən 2,8 milyard insan müasir enerji xidmətlərindən istifadə edə bilmir, 1,1 milyard insan ümumiyyətlə elektrik enerjisindən məhrumdur. Mənzil qızdırmaq və yemək hazırlamaq məqsədilə ekoloji cəhətdən təhlükəli yanacaq növlərindən istifadə təxminən 4,3 milyon insanın vaxtından əvvəl ölümünə və hava çirklənməsinə səbəb olur. (https://sustainabledevelopment.un.org/topics/energy).

## Mövzu 6: Ətraf mühit (Qlobal məqsəd 13 – İqlim dəyişikliyi ilə mübarizə; Qlobal məqsəd 14 – Su altında həyat; Qlobal məqsəd 15 – Yer üzündə həyat)

**Qlobal məqsədlər 13, 14, 15 çərçivəsində vəzifələr**

- Bütün ölkələrdə təbii fəlakətlərin təsirinə qarşı dayanıqlılığı və adaptasiya qabiliyyətini artırmaq.
- Sualtı mühitin çirklənməsinin bütün növlərini, xüsusilə həyat fəaliyyəti zamanı yaranan çirklənmə növlərini azaltmaq və qarşısını almaq.
- Qanunsuz və artıq balıq ovunu tənzimləmək, həmçinin ziyan vuran balıq ovu üsullarını aradan qaldırmaq.
- Bütün tip meşələrin dayanıqlı idarə olunmasını təmin etmək, onların kəsilməsinin qarşısını almaq və meşələri bərpa etmək.
- Təcili və zəruri tədbirlərlə təbii mühitin və bioloji müxtəlifliyin məhvini dayandırmaq.

**Nə üçün?**

- Hesablamalara görə, 60% su ekosistemi uyğun olmayan tərzdə istifadə edilir və ya həddən ziyadə balıq ovu nəticəsində tükənmək üzrədir. Çirklənmə, qlobal istiləşmə, dünya okeanının səviyyəsinin qalxması, atmosferdə karbon qazının konsentrasiyasının artması səbəbilə turş mühitin yaranması insan fəaliyyətinin nəticəsidir. (http://unsdsn.org/resources/goals-and-targets/).

Əlavə 4



# QLOBAL MƏQSƏDLƏR

